# ALLAHA DƏVƏT

Müəllif: Şeyx Məhəmməd ibn Saleh ibn Üseymin
Tərcümə və Qeydlər: İlham Vəlimətli

**Şeyx Məhəmməd ibn Saleh ibn Üseymin**

# ALLAHA DƏVƏT

Müəllif: Böyük alim, Şeyx Məhəmməd ibn Saleh ibn Üseymin (Allah ona rəhmət etsin)
Tərcümə və Qeydlər: İlham Vəlimətli, Mədinə İslam Universitetinin tələbəsi
Redaktor: Elçin Məmmədəliyev

Mədinə – 2026

## Ön Söz

*Həmd aləmlərin Rəbbi Allaha məxsusdur. Onun Rəsulu Məhəmmədə, onun ailəsinə, səhabələrinə və qiyamət gününə qədər onlara gözəl şəkildə tabe olanlara Allahın salavatı və salamı olsun! Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, təkdir, şəriksizdir və şahidlik edirəm ki, Məhəmməd Allahın Rəsulu, peyğəmbərlərin sonuncusudur. Sonra isə:*

Əziz oxucu! Bu kiçik kitabça böyük alimlərdən olan Məhəmməd ibn Saleh ibn Üseyminə (Allah ona rəhmət etsin) məxsusdur. Müəllif əhli-sünnə vəl-camaə mənhəci üzrə tanınmış, elm, təqva və hikməti ilə ümmət arasında qəbul görmüş alimlərdəndir. O, bu risaləni mühazirə şəklində "Mədinə İslam Universiteti"ndə elm tələblərinə təqdim etmişdir. Hər nə qədər elm tələbələrinə təqdim edilmiş mühazirə şəklində qələmə alınsa da, bu risaləni oxumaq hər bir müsəlman üçün faydalı, az da olsa dəvətlə məşğul olan hər kəs üçün isə olduqca zəruridir. Kitabçada Allaha dəvətin vacibliyi, fəziləti, vasitələri, dəvətçinin yiyələnməli olduğu vəsflər, dəvətin uğur qazanmasının səbəbləri və s. barədə danışılır. Kitabça, həmçinin Quran və Sünnədən olan dəlillərlə dəstəklənmişdir ki, bu da oxucuya qeyd olunan məsələləri dəlilləri ilə birlikdə öyrənmə imkanı verir. Bu kitabçanın tərcümə olunmasında məqsəd Allaha dəvət yolunda olan müsəlmanlara yol göstərmək, bu şərəfli vəzifənin öhdəsindən layiqincə gəlməyə yardım etməkdir. Oxucudan xahiş olunur ki, bu risaləni sadəcə oxumaqla kifayətlənməsin, orada qeyd olunan prinsipləri anlamağa və onları dəvət meydanında tətbiq etməyə səy göstərsin.

Tərcümə zamanı mümkün qədər mətndəki mənaların qorunmasına çalışılmışdır, xətalar bizdən, müvəffəqiyyət isə Allahdandır. Uca Allah daha yaxşı bilir, Rəsulumuz Məhəmmədə salavat və salam olsun!

***İlham Vəlimətli***

# MÜQƏDDİMƏ

*Həmd aləmlərin Rəbbi Allaha məxsusdur. Biz Ona həmd edir, Ondan yardım diləyir, bağışlanma istəyirik və Ona tövbə edirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimi doğru yola yönəldərsə, onu azdıran, kimi də azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, təkdir, şəriksizdir və şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir. Ona, ailəsinə, səhabələrinə və qiyamət gününə qədər onlara gözəl şəkildə tabe olanlara Allahın salavatı və salamı olsun! Sonra isə:*

Həqiqətən, Allaha dəvət etmək böyük bir məqam və yüksək bir dərəcədir. Çünki bu, uca Allahın yaratdıqları içərisindən seçilmiş hörmətli rəsulların və onların özlərindən sonra haqq elm, ona əməl etmək və ona dəvət etmək üzərində qoyub getdikləri rəşidi xəlifələrinin məqamıdır. Elə isə bizə yaraşan odur ki, cidd-cəhdlərimizi bu məqama yönəldək və buna layiqincə səy göstərək. Bu işdə səylərimizin təqdir olunması və məqbul sayılması üçün Allaha ixlaslı, həmçinin Onun Rəsulu Məhəmmədin ﷺ yolu ilə gedənlərdən olaq.

Allaha dəvət haqqında olan bu yazımı aşağıdakı fəsillərə bölmüşəm:

Birinci fəsil: Allaha dəvət etməyin vacibliyi və fəzilətinin bəyanı

İkinci fəsil: Allaha dəvət etməyə vasitələr və onların tətbiqi üsulları

Üçüncü fəsil: Allaha dəvət fəaliyyəti sahəsi

Dördüncü fəsil: dəvətçinin yiyələnməli olduğu sifətlər və əməllər

Beşinci fəsil: dəvətin uğur qazanmasının səbəbləri

Allah müvəffəq edəndir!

***Şeyx Məhəmməd ibn Saleh ibn Üseymin***

***(Allah ona rəhmət etsin)***

## Birinci fəsil: Allaha dəvət etməyin vacibliyi və fəzilətinin bəyanı

Uca Allaha dəvət etmək xeyirə və haqqa dəvət etməkdir; çünki bu adilliyə və ehsana, sağlam fitrətin tələb etdiyinə, saf ağılların gözəl gördüklərinə və pak nəfslərin rahatlıq tapdığı şeylərə dəvət etməkdir.

Həmçinin Allaha dəvət, uca Allaha iman etməyə, qəlbin rahatlıq tapdığı və köksün genişləndiyi hər bir salamat əqidəyə dəvət etməkdir. Allaha dəvət, Onun rübubiyyətində, uluhiyyətində, ad və sifətlərində tək olmasına dəvət etməkdir. Allaha dəvət, Onun (pak və nöqsansızın) rübubiyyətində tək olmasına və heç bir şərikinin olmaması haqqında yəqinliyə dəvətdir. Bu kainatda tək olan Allahdan başqa tam bir ixtiyara sahib nə bir yaradan, nə bir idarəçi, nə də bir ixtiyar sahibi vardır. Bu yəqinliyin əldə olunması ilə qəlbin Allahdan başqasına bağlantısı kəsilər, qorxu, ümid və təvəkkül xalis şəkildə Allaha olar. Allaha dəvət, Onun təqdir etdiyi talelərdə və qədərlərdə nə bəndələr üzərində, nə də onlar arasında tək olan Allahdan başqa hökm sahibi olmadığına qəti yəqinliyə dəvətdir. Bu yəqinliyin əldə olunması ilə Allahın şəriətindən qeyrilərinə mühakimə üçün üz tutmaq aradan qalxar, Allahın və Rəsulunun hökmünə ziddiyyət təşkil edən hər bir hökm rədd edilər. Çünki Allah və rəsulunun hökmünə ziddiyyət təşkil edən hər bir hökm zülmdür, batildir, nəticəsi də ölkələrin və insanların fəsada uğramasıdır[1]. Uca Allah demişdir: ***"Yəqin bilən bir qövm üçün Allahdan daha yaxşı hökm verən kimdir?!"***[2]

Bu yəqinliyin əldə olunması ilə bəndələr Allahın şəri hökmlərinə[3] boyun əyər və onları istər nəfsi istəklərinə uyğun olsun, istər zidd, Allahın istəyinə uyğun olaraq həyata keçirərlər. Necə ki, onlar Allahın qədəri hökmlərinə də boyun əyərlər. Allahın qədəri hökmləri bəndələr barəsində icra olunur, onlar razı qalsalar da, bəyənməsələr də qədəri hökmlərə təslimdirlər.

---

[1] Qeyd: lakin zərurət yarandıqda şəriət qanunları ilə hökm verilməyən ölkələrdə müsəlmanların qeyri-şəri qanunlara üz tutması icazəlidir. "Müsəlman bir kəsə qeyri-şəri hökmlərlə idarə olunan məhkəmələrə müraciət etmək icazəli deyil. Şəri qanunlarla idarə olunan məhkəmələr olmadıqda zəruri hallar istisnadır. Əgər bu məhkəmələr tərəfindən ona haqqı olmayan bir şeyin verilməsi üçün hökm oxunarsa, ona bunu götürmək icazəli deyil". (Daimi fətvalar komitəsinin fətvaları, 23-cü cild, səh. 502)

[2] əl-Məidə surəsi, ayə 50.

[3] "Allahın hökmləri iki qisimdir: 1) Allahın şəri hökmləri – bu o hökmlərdir ki, uca Allah bu hökmləri sevir, onların yerinə yetirilməsindən razı qalır, amma bu hökmlərin baş verməsi mütləq deyil, bəzən baş verir, bəzən isə yox. Məsələn, namazın qılınması kimi, uca Allah namazın qılınmasını əmr edib, lakin bəzi insanlar yerinə yetirir, bəziləri isə yox. 2)Allahın qədəri hökmləri – bu o hökmlərdir ki, mütləq olaraq baş verir, bu hökmlər içərisində Allahın sevib razı qaldığı hökümlər, həmçinin sevmədikləri də var". (Bax: ibnÜseymin. *Şərh əl-Əqidə əs-Səffəriniyyə*, səh. 47- 48)

Uca Allah demişdir: *"Yoxsa onlar Allahın dinindən başqasını axtarırlar? (Halbuki,) göylərdə və yerdə olanlar istər-istəməz Ona təslim olmuş və Onun hüzuruna qaytarılacaqlar"*[1] .

Allaha dəvət, Allahdan başqa heç bir kəsin – nə bir Peyğəmbərin, nə bir övliyanın, nə də qeyrilərinin ibadətə layiq olmadığına iman edərək, buna yəqin olaraq tək Ona ibadət etməyə dəvətdir. Uca Allahın tək yaradan olması, Onun ibadətə layiq tək məbud olmasını da vacib edir.

Allaha dəvət, Allahın kitabı və Rəsulunun (ﷺ) sünnəsi yolu ilə Onun barəsində sübut olunmuş ad və sifətlərin hər birinə qəti iman etməyə dəvətdir. Bu vəsflər hər biri həqiqidir, təhrif edilmədən, inkar edilmədən, keyfiyyət verilmədən və bənzəri olduğuna etiqad edilmədən Ona layiq formada sübuta yetirilmişdir. Uca Allah demişdir: *"Onun heç bir bənzəri yoxdur. O, eşidəndir, görəndir"*[2] .

Uca Allaha dəvət, doğru yola tabe olmağa, Allahın nemət bəxş etdiyi Peyğəmbərlərin, siddiqlərin, şəhidlərin və salehlərin yoluna dəvət etməkdir. Bu, eyni zamanda Allahın bəndələrini Özünə tərəf aparan, dini və dünyəvi işlərini sahmana salan yoluna dəvətdir. Bu tabeçiliyin əldə olunması ilə bidət əhlinin bir-birini zəlalətə sürüklədiyi bidətə aparan yollar kəsilər. Hansı ki, bu yollar səbəbi ilə nəfsi istəklər onları Allahın dinindən uzaqlaşdırıb parçalayır və onlar himayədarı olan Allahın *"Şübhəsiz ki, bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Yoxsa (o yollar) sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz."*[3],– deyə əmr etdiyi yola deyil, digərlərinə tabe olurlar. Beləliklə, onlar Allahın qadağan etdiyi təfriqəçiliyə düşmüş olurlar. Belə ki uca Allah demişdir: *"(Allah) Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dini doğru-düzgün yerinə yetirin və onda bölünüb firqə-firqə olmayın!"*[4]

Allaha dəvət, gözəl əxlaqa, saleh əməllərə, hüquqların qorunmasına, hər kəsi haqq etdiyi dərəcəyə yerləşdirməklə və hər bir haqq sahibinə haqqını verməklə insanlar arasında adilliyi bərqərar etməyə dəvətdir. Bunun nəticəsində möminlər arasında qardaşlıq və sevgi gerçəkləşər,

---

[1] Əli-İmran surəsi, ayə 83.
[2] əş-Şura surəsi, ayə 11.
[3] əl-Ənam surəsi, ayə 53.
[4] əş-Şura surəsi, ayə 13.

həmçinin uca, pak və nöqsansız Allahın şəriəti çərçivəsində tam bir əmin-amanlıq, yüksək səviyyəli nizam-intizam hökm sürər. Bütün rəzil əxlaqi davranışlar, pis əməllər, bəşəriyyətin təsis etdiyi qanunlardan götürülmüş cahiliyyə sistemləri və batil etiqadlar tədricən yox olar. Bu əməlləri edən, onlara çağıran və Allahın bəndələrini Ona aparan yoldan uzaqlaşdırmaq istəyən hər kəs rüsvay olar.

Bu və bundan əlavə qat-qat artıq faydalara, həmçinin fəsadların dəf edilməsinə görə, uca Allaha dəvət etmək İslam dinində böyük bir məqama sahib olmuşdur. Bu dəvəti həyata keçirənlər isə İslam dininə görə hörmətli rəsulların varisləri sayılırlar.

Quran və Sünnədə dəvətin əmr edilməsi və fəzilətinin bəyanı barədə çoxu dəlillər varid olmuşdur:

Uca Allah Peyğəmbərinə (ﷺ) xitabən demişdir: ***"Biz hər ümmət üçün onun yerinə yetirə biləcəyi bir şəriət müəyyən etdik. Qoy onlar bu işdə səninlə mübahisə etməsinlər. Sən (onları) Rəbbinə (ibadət etməyə) dəvət et. Həqiqətən, sən ən doğru bir yoldasan"***[1]. Həmçinin demişdir: ***"Allahın ayələri sənə nazil edildikdən sonra onlar səni əsla bu ayələrdən döndərməsinlər. Sən Rəbbinə dəvət et və müşriklərdən olma!"***[2]

Uca Allah demişdir: ***"(Allah) Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dini doğru-düzgün yerinə yetirin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin (tövhid) müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və (Ona) üz tutanı Özünə tərəf yönəldər." "Onlar, özlərinə elm gəldikdən sonra aralarındakı həsəd üzündən ixtilafa düşdülər. Əgər Rəbbindən müəyyən bir vaxtadək (əzabın qiyamət gününə qədər gecikdirilməsi barədə) söz verilmiş olmasaydı, onların arasında artıq hökm verilərdi. Onlardan sonra Kitaba varis olanlar (yəhudilər və nəsranilər) da onun (Quran) barəsində anlaşılmaz bir şübhə içindədirlər." "Buna görə də sən (tövhidə) dəvət et və sənə əmr olunduğu kimi düz yolda ol. Onların nəfslərinin istəyinə tabe olma və de: "Mən Allahın nazil etdiyi Kitaba (bütün kitablara) iman gətirdim. Mənə sizin aranızda ədalətli olmaq əmr edilmişdir. Allah bizim də Rəbbimizdir, sizin də Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin də əməlləriniz sizə aiddir. Bizimlə sizin aranızda***

---

[1] əl-Həcc surəsi, ayə 67.
[2] əl-Həcc surəsi, ayə 78.

***mübahisə ediləcək bir şey yoxdur (çünki artıq haqq bəllidir). Allah hamımızı bir yerə toplayacaq. Dönüş də yalnız Onadır"***[1] .

Həmçinin demişdir: ***"Qoy içinizdən xeyrə çağıran, yaxşı işləri əmr edib pis əməlləri qadağan edən bir camaat olsun. Məhz onlar nicat tapanlardır"."Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Məhz onlar üçün böyük bir əzab vardır"***[2].

Həmçinin demişdir: ***"Allaha tərəf çağıran, saleh əməl edən və: "Mən müsəlmanlardanam!"– deyən kəsdən daha gözəl söz söyləyən kim ola bilər?!"***[3]

Dəvətin vacib olmasına dəlilərdən biri də: Buxari və Müslimin "Səhih" əsərlərində keçən Abdullah ibn Abbasın (Allah hər ikisindən razı olsun) hədisidir. Rəvayət edir ki, Peyğəmbər (ﷺ) Muazı Yəmənə göndərir və oranın əhalisini İslam dininə, namaz qılmağa və zəkat verməyə dəvəti əmr edir[4]. Eləcə də Səhl ibn Sad (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (ﷺ) Xeybər[5] günü Əli ibn Əbu Talibə (Allah ondan razı olsun) demişdir: *"Onların yerinə çatana qədər tələsmədən irəlilə. Sonra onları İslam dininə dəvət et və Allahın onlar üzərindəki vacib haqları barədə xəbər ver. Allaha and olsun! Əgər Allah sənin əlinlə bir nəfəri hidayət etsə, bu sənin üçün qırmızı dəvələrdən daha xeyirlidir"*[6] .

Allaha dəvət etmək pak və nöqsansız Allaha nəsihətdən[7] sayılır: Təmim ibn Övs əd-Dəri (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (ﷺ) demişdir: *"Din nəsihətdir." Biz dedik: "Kimin üçün, ey Allahın Rəsulu?" Dedi: "Allaha, kitabına, Rəsuluna, müsəlmankarın başçılarına və rəiyyətə"*[8].

Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (ﷺ) demişdir: *"Kim bir xeyir əmələ dəvət edərsə, onun üçün ona tabe olanların əcrlərindən heç bir şey əskilmədən o misldə əcr vardır. Kim də bir zəlalətə dəvət edərsə, ona tabe olanların günahlarından heç bir şey əskilmədən o misldə günah vardır"*[9].

---

[1] əş-Şura surəsi, ayə 13-15.
[2] Əli-İmran surəsi, ayə 104-105.
[3] Fussilət surəsi, ayə 33.
[4] Buxari. *Səhih*, hədis 1496; Müslim. *Səhih*, hədis 19.
[5] Xeybər günü deyildikdə hicrətin 7-ci ilində müsəlmanlar və yəhudilər arasında baş vermiş döyüş günü nəzərdə tutulur. Bu döyüş Xeybər adlı ərazidə baş vermiş və müsəlmanların qələbəsi ilə başa çatmışdır.
[6] Buxari. *Səhih*, hədis 2406; Müslim. *Səhih*, 2406.
[7] Allaha nəsihət, əmrlərini yerinə yetirmək, qadağalarından çəkinmək, insanları bu yola dəvət etməklə və s. ilə olur.
[8] Müslim. *Səhih*, hədis 55.
[9] Müslim. *Səhih*, hədis 2674.

Bu ayələr və hədislər uca Allaha dəvət etməyin vacibliyini və bu dəvətin fəzilətini açıqlayır. Bu isə onunla əlaqədardır ki, dəvət etməklə Allahın şəriəti təbliğ olunur və qorunur. Əgər insanlar bu dəvəti qəbul edərlərsə, dünya və axirətlərinə, dinləri və həyatlarına aid çoxlu faydalar əldə edərlər və böyük şərlərdən qorunmuş olarlar.

**İkinci fəsil: Allaha dəvət etməyə vasitələr və onların tətbiqi üsulları**

Dəvət etməyə vasitələr dedikdə dəvətçinin öz dəvətini çatdırmağa imkan verən yolları nəzərdə tuturam. Bu yollar üç növdür və hər birinin özünə məxsus məziyyəti var.

**Birinci növ:** dəvətçinin dəvət olunanlarla üzbəüz görüşərək onlara birbaşa şifahi şəkildə müraciət etməsidir. Beləcə, dəvətçi onlara dəvət etdiyi şeyin mahiyyətini, fəzilətini və həm açıq-aşkar görünən, həm də vəd edilən faydalı səmərələri açıqlayır. Bu növün xüsusiyyəti ondan ibarətdir ki, dəvətçi dəvət olunanların üz cizgilərindən onların qəbul etmə səviyyəsini, köksələrinin dəvətə genişliyini bilir. Buna görə də dəvətçi onların halına uyğun şəkildə davranır, onlarla öz arasında keçən dialoq vasitəsilə onları dəvəti qəbul etmə və razı olma halına çatdırır. Bu növ çox vaxt digərlərinə nisbətən daha təsirli olur.

**İkinci növ:** dəvətçinin dəvət olunanlarla bir başa deyil, vasitəli şəkildə şifahi ünsiyyət qurmasıdır. Məsələn, radio vasitəsilə ünsiyyətin əldə olunması kimi[1]. Bu növün xüsusiyyəti ondan ibarətdir ki, o, birinci növdən daha əhatəlidir və daha şamildir ki, birbaşa şifahi ünsiyyətin çatmadığı yerlərə çatır.

**Üçüncü növ:** qəzetlərdə, jurnallarda, plakatlarda və s. münasib şeylər üzərində yazı yazmaq – təlif və nəşr etmə yolu ilə dəvət etməkdir. Bu növün xüsusiyyəti ondan ibarətdir ki, bu növdən istifadə edən dəvətçi dəvət olunanlara dəvət olunduqları şeyləri dərk etmə fürsəti verir. Çünki dəvət olunanlar dəvət olunduqları şeyi bir neçə dəfə oxuya, fəzilətlərini və səmərələrini diqqətli incələyə bilirlər.

Allaha dəvət etməyin tətbiqi üsullarına gəldikdə isə onlar dəvət olunanların halına görə dəyişir. Dəvət olunanların üç halı vardır:

**Birinci hal:** dəvət olunanın xeyirə rəğbətli, ona maraq göstərən olmasıdır, lakin bəzən o, hər hansı xeyirli bir əməli bilməyə bilər və bu, ondan gizli qala bilər. Belə bir kimsəni, sadəcə, dəvət etmək kifayətdir.

---

[1] Qeyd: bu növ, müasir dəvət metodlarının ən qabaqcıllarından sayılır, faydası da böyükdür. Xüsusilə, demək olar, bütün insanların istifadə etdiyi sosial şəbəkələrdə (YouTube, İnstagram, Telegram və s.) dəvət üçün böyük fürsətlər vardır, gəlin, bu fürsətlərdən yararlanaq. Şəkk yoxdur ki, bunu qeyd etmək də məqsədimiz əhli olmayan insanların YouTube və s. kimi platformalara çıxıb dəvət etməsinə təşviq deyil, məqsədimiz odur ki, sıravi bir müsəlman da bu sosial şəbəkələrdə elm əhlinin, tələbələrimizin (Allah onları qorusun) dərslərini, moizələrini insanlara çatdıra bilər. Həmçinin tərcümə edilmiş kitablardan, məqalələrdən və s. paylaşımlar edə bilər. Unutmayaq ki, hər birimiz gücü çatdığı qədər bu dinə yardım etməlidir.

Məsələn, ona deyilir ki, bu əməl Allah və Rəsulunun əmr etdiyi əməllərdəndir, onu yerinə yetir. Və yaxud deyilir ki, bu əməl Allah və Rəsulunun qadağan etdiyi əməllərdəndir, ondan çəkin. Həmin dəvət olunan xeyirə olan rəğbətinə və ona yönəlməsinə görə bu dəvəti qəbullanacaq və itaət edəcəkdir.

**İkinci hal:** dəvət olunan şəxsdə xeyirə qarşı zəiflik və tənbəllik, pis əməllərə qarşı isə rəğbət və maraq olmasıdır. Belə bir kimsəni sadəcə, dəvət etmək kifayət deyil. Əksinə, labüddür ki, dəvət olunanı xeyirə və itaətə rəğbətləndirmək üçün bu dəvətə gözəl moizə, dəvət edilən əməlin fəzilətinin izahı və gözəl sonluğu barədə məlumat əlavə edilsin. Həmçinin ona bu dəvətin xeyirli nəticələri barədə misallar çəkmək, şər və fasiqliyin günahını bəyan etmək və bunun və fasiqlərin aqibətinin pis olacağını açıqlamaq mütləqdir. Uca Allah demişdir: ***"Sonra isə Allahın ayələrini yalan sayıb onlara istehza etməklə pislik göstərənlərin aqibəti lap yaman oldu"***[1] .

**Üçüncü hal:** dəvət olunan şəxsdə xeyirə üz çevirmə, şərə və ona dəlilgətirməyə qarşı isə həvəs və istək olmasıdır. Belə bir kimsəni, sadəcə, dəvət etmək və ona moizə söyləmək kifayət deyil. Əksinə, labüddür ki, bu dəvətə və moizəyə ən gözəl tərzdə mübahisə[2] də əlavə edilsin. Ən gözəl tərzdə mübahisə et, ən gözəl tərzdə haqqı bəyan et ki, onun dəlilini rədd edəsən və onun yolunun batil olduğunu sübut edəsən!

Yuxarıda qeyd etdiyimiz dəvət olunan şəxslərin üç halına uca Allahın bu sözü dəlalət edir: ***"(İnsanları) Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et"***[3] .

Şeyxülislam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "İnsanlar üç qisimdir: haqqı bilib ona tabe olanlar; belələri hikmət sahibləridir. Digərləri isə haqqı bilib ona əməl etməyənlərdir; belələrinə əməl etmələri üçün nəsihət olunur. Bir qisim də vardır ki, haqqı etiraf etməzlər; belələri ilə ən gözəl tərzdə mübahisə edilir. Mübahisənin ən gözəl tərzdə olması ona görə xüsusi qeyd olunur ki, mübahisə etmək öz-özlüyündə qəzəb doğuran bir vəziyyətdir, əgər ən gözəl tərzdə olarsa, onun

---

[1] ər-Rum surəsi, ayə 10.
[2] Burada mübahisə dedikdə: "Bir işi, məsələni və sairə müzakirə etdikdə öz fikrini qoruyan, sübut etməyə çalışanlar arasında başlanan bəhs, deyişmə", – nəzərdə tutulur. (Azərbaycan dilinin izahlı lüğəti)
[3] ən-Nəhl surəsi, ayə 125.

mənfəəti də mümkün qədər əldə edilər – şübhələrlə hücum edəni dəf etmək kimi"[1].

Əgər dəvət olunan şəxs onunla ən gözəl tərzdə edilən mübahisədən sonra adillik yolunu tutarsa, haqqı etiraf edib ona boyun əyərsə, nə gözəl; yoxsa onunla uca Allahın ***"İçərilərindən zülm edənlər müstəsna olmaqla Kitab əhli ilə gözəl tərzdə mübahisə edin"***[2], – ayəsinin dəlalət etdiyi dördüncü hala keçərik.

İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "Yəni onlar haqdan üz döndərdilər, açıq-aşkar dəlilləri görməzdən gəldilər, inad etdilər və təkəbbür göstərdilər. O zaman sözlə mübahisədən (əməllə) mübarizəyə keçilir və onları çəkindirən, qarşısını alan vasitələrlə mübarizə aparılır"[3]. **Dördüncü halı həyata keçirmək səlahiyyət sahibi olmayan fərdlərin öhdəsinə düşmür, çünki bu, çoxlu zərərləri və fəsadları olan hərc-mərcliyin ortaya çıxmasına səbəb olur.**

Bu, dəvətin tətbiqi üsulları idi ki, burada, əsasən, dəvət olunanın halına onun dəvəti qəbul etməyə hazır olub-olmaması tərəfdən baxılır.

Dəvət olunan məsələlərdəki tərtibi üsullara gəldikdə isə – öncə ən mühümlərindən və özündən sonra gələn məsələlər üçün başlanğıc rolunu oynayan əsaslardan başlanılır. Beləcə, dəvət olunan şəxs tərtiblə bir mərhələdən digərinə keçirilir. Buna misal olaraq, əgər biz pak və nöqsansız Yaradanın varlığını inkar edən bir şəxsi Onu iqrar etməyə, Ona ibadət etməyə və Rəsuluna tabe olmağa dəvət etmək istəyiriksə, biz birinci, Yaradanın varlığını sübut etməklə başlamalıyıq. Bu da əqli dəlillər gətirmək, pak və nöqsansız Yaradanın mövcudluğuna hissi misallar çəkmək yolu ilə olur, ta ki həmin şəxs Onun varlığını iqrar etsin və Onun şəriki olmayan, tək Yaradan olduğunu etiraf etsin.

Sonra dəvət olunan şəxslə Allahın uluhiyyətinin, Ona ibadət etməyin vacibliyinin isbatına keçirik. Çünki onun Allahın rübubiyyətini təsdiq etməsi, uluhiyyətini də təsdiq etməsini zəruri edir. Məhz buna görə uca Allah Quranda bir çox yerdə uluhiyyəti rübubiyyətə əsaslandırır[4].

---

[1] İbn Teymiyyə. *Məcmu' ul-Fətəva*, 2-ci cild, səh. 45.

[2] əl-Ənkəbut surəsi, ayə 46.

[3] İbn Kəsir. *Təfsir ul-Quran il-Azim*, 10-cu cild, səh. 517.

[4] Yəni uca Allah kitabında Özünün yaradan, ruzi verən, həyat verən öldürən və s. olduğunu açıqlayaraq qulların da bu səbəblə tək Ona ibadət etmələrinin vacib olduğunu açıqlayır.

Uca Allah buyurur: ***"Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin"***[1].

Bundan əlavə yaratmağa qadir olmayan birinin Ona şərik qoşulmasını inkar edərək buyurur: ***"Yoxsa onlar heç bir şey yaratmağa qadir olmayan, özləri yaradılmış olan bütləri Allaha şərik qoşurlar?"***[2] Həmçinin demişdir: ***"(Kafirlər isə) Onun əvəzinə heç nəyə fayda verməyən, həm də özləri yaradılan, özlərinə nə bir zərər, nə də bir xeyir verməyə qadir olmayan, öldürməyə, həyat verməyə və yenidən diriltməyə qüdrəti olmayanları özlərinə ilahlar qəbul etdilər"***[3] .

Sonra dəvət olunan şəxslə növbəti mərhələyə – Allaha ibadət yolunun və bu yolla getməyin vacib olmasının isbatına keçirik. Bu yol uca Allahın insanlara göndərdiyi rəsulların yoludur. Allah-taala onları möcüzələrlə dəstəkləmişdir. Rəsulların göndərilmə səbəbi insanlara fayda verə biləcək qeybi məsələləri öyrətmək və izzət, calal sahibi Allaha necə ibadət edəcəklərini açıqlamaqdır. Çünki ibadət uca Allahın haqqıdır və bəndələrinə Özünün razı qaldığı formada ibadət etməyi vacib etmişdir. Bəndələr Allaha Onun razı qaldığı şəkildə ibadət etməyi yalnız rəsulların vasitəsilə öyrənə bilərlər.

Əgər dəvət olunan şəxs Allaha ibadətdə mütləq şəkildə bir yol üzərində getməli olduğunu (bu yolu yalnız rəsulların vasitəsilə öyrənə bilər) etiraf edərsə, onunla xüsusi yola – tabeçilik vacib olan rəsulun yoluna dəvətə keçirik. Bu da bütün bəşəriyyətə Rəsul olaraq göndərilmiş Qüreyşli, Haşimi qəbiləsinə mənsub Məhəmməd ibn Abdullahın yoludur. Beləcə, dəvət olunan şəxsə buna dəlalət edən ayələri açıqlayır, Məhəmmədin (ﷺ) Allahın Rəsulu olduğuna iman etmək ondan əvvəl gəlmiş rəsullara da iman gətirməyi ehtiva etdiyini, əksinin isə doğru olmadığını (yəni başqa hər hansı Peyğəmbərə iman gətirmək Məhəmmədə də (ﷺ) iman gətirilmiş olduğu anlamına gəlmədiyini – tərc.) izah edirik. Əgər dəvət olunan şəxs bunları da qəbullanarsa, onun təsdiqləməsi və ən mühümlərindən başlayaraq (namaz, sonra zəkat və beləcə) əməl etməsi üçün Peyğəmbərin (ﷺ) şəriətinin gətirdiyi məsələlərin təfsilatına keçirik.

---

[1] əl-Bəqərə surəsi, ayə 21.
[2] əl-Əaraf surəsi, ayə 191.
[3] əl-Furqan surəsi, ayə 3.

## Üçüncü fəsil: Allaha dəvət fəaliyyəti sahəsi

Allaha dəvət fəaliyyəti sahəsi dedikdə müxtəlif dəvət sahələrini nəzərdə tuturuq. Allaha dəvət etmək müəyyən bir sahə üzərində məhdudlaşmır, əksinə onun bir çox sahələri var:

**1. Şəxsi əlaqələr:** belə ki, dəvətçi hər hansı bir şəxsə yönəlir və onu ikinci fəsildə keçən tətbiqi və tərtibi üsullara uyğun olaraq uca Allahın yoluna dəvət edir. Məscidlər və s. kimi insanların toplaşdığı ictimai yerlər: həcc mövsümlərində, toplantılarda, kafelərdə, restoranlarda və s. yerlərdə məsləhətə uyğun şəkildə ehtiyac olan məsələlərə dəvət etmək. Məhz buna görə də, Peyğəmbər (ﷺ) qəbilələrə məxsus mövsümlərdə, onların bazarlarında qarşılarına çıxar, onları izzət və calal sahibi Allahın yoluna dəvət edərdi. İmam Əhməd (Allah ona rəhmət etsin) Rabiə ibn İbədin (Allah ondan razı olsun) belə dediyini rəvayət etmişdir: *"Mən Peyğəmbəri (ﷺ) "Zul-Məcaz bazarı"nda belə deyərkən gördüm "Ey insanlar, "ləə iləhə illəllah" (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur – tərc.) deyin, qurtulun!"*[1] . Həmçinin Cabir ibn Abdullah (Allah onlardan razı olsun) demişdir: "Peyğəmbər (ﷺ) həcc mövsümündə özünü insanlara ərz edərək deyərdi: *"İçinizdə məni öz qövmünə aparacaq biri varmı, çünki Qüreyş izzət və calal sahibi Rəbbimin kəlamını təbliğ etməyimə mane oldu"*[2]. Məhəmməd ibn İshaq demişdir: "Allah Rəsulu (ﷺ) bu hal üzərində idi: həcc mövsümündə insanlar nə vaxt bir yerə toplaşırdılarsa, onların yanına gedər, qəbilələri Allaha və islam dininə dəvət edərdi. Özünü və Allahdan gətirdiyi hidayəti, rəhməti onlara ərz edərdi. Ərəblərdən Məkkəyə gələn adlı-sanlı və nüfuz sahibi olan bir kimsə haqqında eşidən kimi dərhal onun qarşısına çıxar, onu uca Allaha dəvət edər, özündə olanı (hidayət, rəhmət, tövhid və s.–tərc.) ona ərz edərdi"[3].

**2. Məktəblər, institutlar, universitetlər kimi tədris mərkəzlərində dəvət etmək.** Bu dəvətin mühazirələr, ümumi toplantılar, yaxud xüsusi dərslər vasitəsilə həyata keçirilməsi fərq etməz. Həqiqətən, dinində ixlaslı olan müəllim dərs keçərkən sözü, doğru-düzgün rəftarı və öz ibadəti və s. ilə Uca Allaha dəvət etməyi bacarır. Çünki müəllim tələbələri üçün bir nümunədir. Onun əməlləri, əxlaqi davranışları onların zehinlərində öz təsirini daşıyır, əxlaqi davranışlarında və əməllərində açıq-aşkar görünür.

---

[1] Əhməd. *Müsnəd*, 3-cü cild, səh. 492

[2] Tirmizi. əl-*Cəmi',* hədis 925; Nəsəi. *Sünən*, hədis 2901; Əbu Davud. *Sünən*, hədis 4734; İbn Məcə. *Sünən*, 201.

[3] İbn Kəsir. əl-*Bidəyə vən-Nihəyə*, 4-cü cild, səh. 364.

## Dördüncü fəsil: dəvətçinin yiyələnməli olduğu sifətlər və əməllər

Dəvətçinin məqamı mühüm rəhbərlik məqamıdır. O, bunu lazımınca qiymətləndirməli, diqqət göstərməlidir. Bütün bunları həyata keçirmək üçün dəvətçi aşağıda gələnlərə riayət etməlidir:

1. **Əməlində uca Allaha ixlaslı olmalıdır:** belə ki, dəvətində məqsəd izzət və calal sahibi Allaha yaxınlaşmaq, Onun dininə yardım etmək, həmçinin Allahın bəndələrini cahilliyin və asiliyin zülmətindən elmin və itaətin nuruna çıxarmaqla onları islah etmək olmalıdır. Beləcə, onun dəvəti Allaha və Onun dininə sevgidən, bəşəriyyət üçün xeyir istəməsindən irəli gəlmiş olar. İxlasdan, əzmkarlıqdan və Allaha təvəkküldən irəli gələn dəvətin təsirli olması və öz işini görməsi qaçılmazdır. Məgər Musanın (Ona Allahın salavatı və salamı olsun) qissəsini görmürsənmi, bayram günü səhər çağı insanlar onun üçün toplaşdıqda və bütün hiylələrini Musaya (Ona Allahın salavatı və salamı olsun) qarşı toplayıb, sonra lovğalıq və təkəbbürlə gəldikdə ***"Musa onlara dedi: "Vay halınıza! Allaha qarşı yalan uydurmayın, yoxsa O sizi əzabla məhv edər. İftira yaxan ziyana uğrayar"***[1]. Bu kəlmə nə etdi – heç gecikmədən, dərhal onların həmrəyliyini pozdu, birliyini dağıtdı ***"Öz aralarında işləri barədə mübahisə etdilər"***[2]. İxtilaf etmək zəifləməyin və ruhdan düşməyin ən böyük səbəblərindəndir. Necə ki pak və nöqsansız Allah demişdir: ***"Bir-birinizlə ixtilaf etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz"***[3].

Dəvətçinin uca Allaha ixlaslı olması öz dəvətində uğur qazanması, həmçinin savab əldə etməsi üçün çox mühümdür. Amma dəvətçinin məqsədi öz dəvəti ilə insanlara riyakarlıq etmək olarsa, yaxud dünyadan bir şey – mal-dövlət, vəzifə, rəhbərlik əldə etmək olarsa, onun əməli puç, qazancı isə az olar. Uca Allah demişdir: ***"Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini dünyada tam verərik və onlar orada zərər çəkməzlər. Belələrinin axirətdə oddan başqa heç bir payı yoxdur. Onların dünyada gördükləri işlər boşa çıxar və etdikləri əməlləri də puç olar"***[4].

---

[1] Tahə surəsi, ayə 61.
[2] Tahə surəsi, ayə 62.
[3] əl-Ənfəl surəsi, 46.
[4] Hud surəsi, ayə 15-16.

Əbu Hureyra (Allah ondan razı olsun) demişdir: "Mən Peyğəmbərin (ﷺ) belə dediyini eşitmişəm: *"Qiyamət günü insanlardan ilk hesaba çəkilənlər... "* – dedi və hədisi danışdı. Həmin hədisdə keçir ki, *"elm öyrənib öyrədən, Quran oxuyan biri gətirilir. Uca Allah nemətlərini ona xatırladır, o da etiraf edir. Uca Allah deyir: "Bəs sən o nemətlərlə nə etdin?" O deyir: "Sənin üzünü diləyərək elm öyrəndim və öyrətdim, Quran oxudum". Uca Allah deyir: "Yalan danışırsan. Sən elm öyrəndin ki, sənə "alim" deyilsin, Quran oxudun ki, bu "qiraətçidir" deyilsin. Artıq deyildi". Sonra onun barəsində əmr edilir, üzü üstə sürüyərək aparılır və nəhayət oda atılır"*[1].

**2. Dəvətçi (uca Allaha dəvətində) öz Peyğəmbəri Məhəmmədin (ﷺ) sünnətini və yolunu yaydıqda onun varisi olduğunu etiqad etməlidir:** bu onu uca Allaha dəvətdə Peyğəmbərin (ﷺ) yolu ilə getməyə, səbirli olmağa, savab qazanacağına ümid etməyə və uca Allahın: ***"De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, bəsirət üzərində, insanları Allaha dəvət edirik"***[2] – sözünə daxil olmağa sövq edir.

**3. Dəvətçi uca Allaha dəvətində davamiyyətli olmalıdır: sıxıntılar onu sarsıtmamalı, sabitqədəm qalmalıdır.** Ümidsizlik onu qırmamalıdır; çünki o, getdiyi yolun doğruluğuna əmin, nəticəsinə ümidlidir. O, həmçinin iki uğura (zəfərə və ya şəhidliyə – tərc.) əmin, bundan artığına (Allahın üzünü görməyə – tərc.) ümidlidir. O, haqqı bəyan etdiyinə, niyyətini xalis, əməlini islah etməklə axirət savabını qazanacağına və üzərindən zaman keçsə də onun dəvəti sayəsində insanların islah olacağına əmindir.

**4. Dəvətçi səbirli olmalı və səbirlə iş görməli, məxluqat tərəfindən ona edilən əziyyətə səbir etməlidir;** çünki kim bu mühüm işi yerinə yetirməyə qalxarsa, onun dəvətinə düşmən kəsilən məxluqatın ən şərliləri – onlar necə də çoxdur! – tərəfindən sözlə və əməllə əziyyətə məruz qalması qaçılmazdır. Bu əziyyət ya şəxsən onun özünə, ya da dəvətinə toxunacaqdır. Bu barədə Peyğəmbərin (ﷺ), həmçinin ondan əvvəl gəlmiş digər hörmətli Peyğəmbərlərin başına gələnlərdən ibrət götürməlidir. Uca Allah demişdir: ***"Səndən əvvəlki peyğəmbərlər də yalançı sayılmışdı. Lakin Bizim köməyimiz onlara gələnədək yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbir etdilər.***

---

[1] Müslim. *Səhih*, hədis 1905.
[2] Yusuf surəsi, ayə 108.

***Allahın kəlmələrini dəyişdirə biləcək kimsə yoxdur"***[1]. Səbir ali bir məqamdır və yalnız bəndəyə səbrin acısını daddıran, onun məşəqqətinə qatlaşdıran səbəblərlə əldə edilir. Uca Allah demişdir: ***"Yalnız səbir edənlərə mükafatları saysız-hesabsız veriləcəkdir"***[2]. Qoy dəvətçi haqqı bəyan edərkən , ona dəvət edərkən və bu yolda mübahisə edərkən səbir göstərsin, həmçinin arzuolunan məqsədə çatması üçün geniş səbir və uzaqgörənliklə səciyyələnsin.

**5. Dəvətçi Allaha dəvətdə hikmət yolunu tutmalı, məqama və vəziyyətə münasib üslublardan istifadə etməlidir;** insanlar fəhm və elmdə, sərtlik və yumşaqlıqda, haqqa təvazökarlıqda və ona təkəbbür göstərməkdə eyni deyillər. Qoy dəvətçi hər kəsə münasib olan üslubdan istifadə etsin. Çünki bu, haqqın qəbuluna və ona boyun əyməyə daha yaxın olar. Həqiqətən də, belə etmək Allaha hikmətli dəvətdən sayılır. Qoy dəvətçi mülayim və səbirli olsun; doğru yoldan azmış birini gördükdə ondan üz çevirməsin, onu azğınlıq meydanında tənha buraxıb şeytana təslim etməsin. Əksinə, onunla əlaqə saxlasın, haqqı bəyan etsin, ona haqqı sevdirsin. Nə qədər insan olub ki, onun hidayətə gəlməsi qeyri-mümkün hesab edilib, sonra izzət və calal sahibi Allah ona hidayət verib.

Əgər dəvət olunanın üzərində olduğu batili birbaşa onun üzünə inkar etmək, onun haqqa qarşı nifrətini artırır və günahda daha da dərinləşməsinə səbəb olursa, hikmətdəndir ki, dəvətçi bundan çəkinsin. Uca Allah buna işarə edərək buyurur: ***"(Müşriklərin) Allahdan başqa tapındıqlarını söyməyin. Yoxsa onlar da elmsizlikləri ucbatından, düşməncəsinə Allahı söyərlər. Biz hər bir ümmətə öz əməllərini beləcə gözəlləşdirdik. Sonra isə onların dönüşü öz Rəbbinə olacaq, Allah da onlara nə etdikləri barədə xəbər verəcəkdir"***[3]. Lakin dəvətçi, dəvət olunanın qəlbini ələ keçirməyi bacarınca ona haqqı xatırlatmalı və sevdirməlidir. Əgər o haqqı sevərsə, vərdiş etdiyi batil əməlləri tərk etmək də, onun üçün asan olar. Doğrudan da, vərdiş edilmiş bir əməli birbaşa tərk etmək nəfsə ağır gəlir və insan belə əməlləri yalnız güclü müqavimət göstərməklə tərk edə bilər. (Misal olaraq) insanlar içki içməyə vərdiş etdikləri bir vaxtda, uca Allahın içkinin şəriətdə haram olduğunu açıqlayarkən hikmətinə bax; belə ki, içki birbaşa deyil, möminlər onun barəsində soruşduqdan sonra mərhələli şəkildə haram edilmişdir:

---

[1] əl-Ənam surəsi, ayə 34.
[2] əz-Zumər surəsi, ayə 10.
[3] əl-Ənam surəsi, ayə 108.

**Birinci mərhələ:** möminlərin sualına cavab olaraq uca Allah demişdir: ***"Səndən içki və qumar barədə soruşurlar. De: "İkisində də, həm böyük günah, həm də insanlar üçün mənfəətlər vardır. Amma günahları mənfəətlərindən daha böyükdür"***[1]. Təkcə "mənfəət" demədi; əksinə, içki və qumardan hasil ola biləcək və ya təsəvvür edilən hər cür mənfəəti əhatə etmək üçün "mənfəətlər" dedi. Beləcə, içki və qumarda olan bütün mənfəətlər onlarda olan böyük günahlar qarşısında kiçik qalır və bu da, içkinin həqiqi mahiyyətini üzə çıxarır. Bununla da, içkinin mahiyyəti üzərində düşünən hər bir insan – hətta ona haram edilməmiş olsa belə – onun zərərinin faydasından daha böyük olduğunu bildiyi üçün onu tərk etməyi üstün tutacaqdır. Həmçinin ayənin bu şəkildə ifadə olunmasında içkinin haram ediləcəyinə işarə vardır. Çünki şəriətin qaydalarından biri də budur ki, zərəri faydasından üstün olan hər bir şey haramdır. Buna görə də nəfs onun haram ediləcəyini hiss edir. Elə bu səbəbdən də, haram edilməsi hökmü gəldikdə artıq buna hazır olan nəfslərlə qarşılaşır və bunu qəbul etməsi də asan olur.

**İkinci mərhələ:** sərxoş halda namaza yaxınlaşmağın qadağan olmasıdır. Uca Allah demişdir: ***"Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayınca namaza yaxınlaşmayın"***[2]. Bu qadağa insanın ən az gecə və gündüz beş vaxt içkidən uzaq durmasını ehtiva edir. Beləcə, nəfs bəzi vaxtlarda içkidən uzaq durmağa vərdiş olur, bu da ona gələcəkdə içkidən tamamilə imtina etməyi asanlaşdırır.

**Üçüncü mərhələ:** hər bir vaxtda və vəziyyətdə içkinin qadağan olmasıdır. Uca Allah "əl-Məidə" surəsində – bu içki barədə nazil olmuş axırıncı ayədir – buyurur: ***"Ey iman gətirənlər! Şübhəsiz ki, şərab da, qumar da, (ibadət üçün) dik qoyulmuş bütlər (və ya daşlar) da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan şərab və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı zikr etməkdən və namazdan ayırmaq istər. Bunlara son qoyacaqsınızmı?"***[3]. Beləcə, səhabələr içkinin haramlığı barədə gələn öncəki hazırlıqdan sonra tam bir asanlıqla buna son qoydular. Rəhimli və Hikmətli Allah pak və nöqsansızdır!

---

[1] əl-Bəqərə surəsi, ayə 219.
[2] ən-Nisə surəsi. ayə 42.
[3] əl-Məidə surəsi, ayə 90-91.

Hikmətli dəvətə misallardan biri də budur: Səqif qəbiləsi Allah Rəsuluna (ﷺ) zəkat verməmək, cihada çıxmamaq şərtilə beyət etmişdir. Buna baxmayaraq, Allah Rəsulu (ﷺ) onların beyətini qəbul etdi və dedi: *"Zəkat da verəcəklər, cihad da edəcəklər"*[1]. Çünki, iman qəlbə daxil olduqda möminə bütün islam şəriətinə əməl etməyi lazımi edir. İman nə qədər güclü olarsa, mömin imanın vacibatlarını və onu kamilləşdirən əməlləri bir o qədər tam yerinə yetirər.

**6. Dəvətçi Allahın şəriətindən dəvət etdiyi məsələlər barəsində elmli olmalı, həmçinin dəvət etdiyi şəxslərin mənəvi xarakterlərindən, elmi və əməli vəziyyətlərindən xəbərdar olmalıdır.** O, Allahın şəriətini bilməlidir ki, Allaha bəsirət və dəlil üzərində dəvət etsin, nə özü azsın, nə də başqalarını azdırsın və uca Allahın: ***"De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, bəsirət üzərində, insanları Allaha dəvət edirik"***[2] – sözünə daxil ola bilsin. Həmçinin elmli olmalıdır ki, öz dəvətini müdafiə etməyi, mübahisə etdiyi şəxsi yola gətirməyi bacarsın. Nə qədər dəvətçilər olub ki, şəri elmləri bilmədikləri üçün həm özlərinə, həm də dəvətlərinə böyük zərər üz verib. Çünki onların haqq barəsində elmlərinin az olması, batil qarşısında məğlub olmaqlarına səbəb olmuşdur. Ona görə də uşaqları döyüşə göndərmək imkansız olduğu kimi, belə cahil kəslərin də dəvət etməsinə fürsət vermək icazəli deyil[3].

Eyni zamanda dəvətçi dəvət olunanların mənəvi xarakterlərindən, elmi və əməli vəziyyətlərindən xəbərdar olmalıdır ki, onları dəvət etməyə hazırlansın, onların dəvətində hallarına uyğun yol götürsün. Məhz buna görə də, Peyğəmbər (ﷺ) Muazı (Allah ondan razı olsun) dəvət üçün Yəmənə göndərəndə ona belə demişdir: *"Sən kitab əhli olan bir qövmə gedəcəksən"*[4]. Peyğəmbər (ﷺ) bunu deməklə yuxarıda qeyd olunan iki qayənin (hazırlıqlı olması və onların dəvətində uyğun yol götürməsi – tərc.) əldə olunması üçün ona gedəcəyi yerdəki insanların halından xəbər vermişdir. Şübhəsiz ki dəvətçi dəvət olunan kəslərin halını bilmədən dəvət edərsə, məqsədi öz

---

[1] Əbu Davud. *Sünən*, hədis 3925.
[2] Yusuf surəsi, ayə 108.
[3] Ona görə ki belə kəslərin dəvəti xeyirdən çox zərər gətirir. Günümüzdə sosial şəbəkələrin əlçatan olması bu cür halların daha da geniş yayılmasına səbəb olmuşdur. Müsəlmanlar ayıq-sayıq olmalı, dinlərini kimdən öyrəndiklərinə diqqət etməli və hər danışandan deyil, əqidəsi və mənhəci düzgün olan şəxslərdən öyrənməlidirlər. Necə ki, bir yerimiz ağrıyanda tibbi biliyi olan həkimə müraciət edirik, eləcə də, dini bir məsələni öyrənmək istədikdə hər danışana deyil, bu işin əhli olanlara üz tutmalıyıq. Neçə-neçə insanlar olub ki, eşitdikləri batil bir sözdən və ya fikirdən dolayı qəlblərinə şübhə düşüb doğru yoldan sapmalarına səbəb olmuşdur.
[4] Buxari. *Səhih*, hədis 1496; Müslim. *Səhih*, hədis 19.

əleyhinə çevrilə bilər və ən mühüm məsələlər durduğu halda mühüm olmayan şeylərə dəvət etməyə başlayar.

**7. Dəvətçi elmdə və əməldə gözəl nümunə olması üçün din və əxlaq cəhətdən böyük bir paya sahib olmalıdır.** Beləcə, ona əmr edilmiş hər bir ibadəti və fəziləti yerinə yetirər, çəkinməli olduğu hər bir günah və rəzillikdən uzaq durar. Çünki insanın özü etmədiyi bir şeyi başqalarına əmr etməsi, özünün etdiyi bir şeyi başqalarına qadağan etməsi dinə uyğun davranış deyil. Uca Allah buyurur: ***"Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi nə üçün deyirsiniz ? Etməyəcəyiniz bir şeyi deməyiniz Allah yanında böyük qəzəblə qarşılandı"***[1]. Həmçinin Buxari və Müslimin "Səhih"əsərlərində və digər kitablarda keçir ki, Usəmə ibn Zeyd (Allah onlardan razı olsun) Peyğəmbərin (ﷺ) belə dediyini rəvayət etmişdir: *"Qiyamət günü bir kişi gətirilib oda atılacaq və odun şiddətindən bağırsaqları qarnından çölə çıxacaq. Uzunqulaq əl dəyirmanının ətrafında dövr etdiyi kimi, o da, bağırsaqları çölə çıxmış halda dövr edəcək. Cəhənnəm əhli onun ətrafına toplaşacaq və deyəcəklər: "Ey filankəs! Sənə nə olub? Məgər sən bizə yaxşılığı əmr edib pislikdən çəkindirmirdinmi?" O deyəcək: "Sizə yaxşılığı əmr edir, özüm onu yerinə yetirmirdim, sizə pisliyi qadağan edir, özüm isə onu edirdim"*[2].

Əmr etdiyi şeyləri özü yerinə yetirməməsi və qadağan etdiyi şeylərdən çəkinməməsi dinə uyğun davranış olmadığı kimi, həmçinin əqli cəhətdən də yanlışdır. Uca Allah buyurur: ***"Siz kitabı (Tövratı) oxuduğunuz halda, insanlara yaxşılığı əmr edir, özünüzü isə unudursunuz?! Məgər anlamırsınız?!"***[3]. Həmçinin ona görə ki dəvətçinin bir əmələ dəvət etməsi, o əməlin məsləhətli olmasına və faydasına əmin olduğu üçün baş verir. Sonra özü bu əməli yerinə yetirmədikdə ya qadağalar qisminə daxil olan bir əməli edib zərərə düşür, ya da xeyirli əməllər qisminə daxil olan bir əməli tərk edib faydanı əlindən qaçırır. Hər ikisi əqli cəhətdən yanlışdır, çünki aqil insan nə özünə dəyəcək faydanı əlindən qaçırar, nə də özünə zərər toxundurar. Yox, əgər dəvətçi dəvət etdiyi əməlin faydalı və məsləhətli olmasına əmin deyilsə, bu daha da pisdir. Çünki faydalı görmədiyi işdə özünü yorur və əhli olmadığı libasın altında gizlənmiş olur. Həmçinin əgər dəvətində riyakarlığa yol vermişdirsə, artıq özünü aldatmış, hiylə gəlmişdir. Ona görə ki onun gördüyü iş aradan qalxacaq, halı da ortaya çıxacaqdır.

---

[1] əs-Saff surəsi, ayə 2-3.
[2] Buxari. *Səhih,* hədis 3267; Müslim. *Səhih,* hədis 2989.
[3] əl-Bəqərə, ayə 44.

Uca Allah buyurur: ***"Köpük yox olub gedir, insanlara fayda verən şeylər isə yerdə qalır"***[1]. Şair demişdir:

"Bil ki, riya paltarı göstərir altındakını,
Geyinsən də, əslində, artırır çılpaqlığını"[2].

Bundan başqa dəvətçi bilməlidir ki, onun Allaha itaətdə səhlənkarlıq etməsi başqasının səhlənkarlığı kimi deyildir; o, insanlara nümunədir. İnsanlar onu səhlənkar gördükdə özləri də onun kimi və ya ondan daha da şiddətli şəkildə səhlənkar olurlar. Buna görə də, müstəhəb (bəyənilən) bir əməl bəzən – əgər bu müstəhəb əməlin zahir olması, tanınması onun əməlindən asılıdırsa – dəvətçi üçün vacib hökmündə olur. Eləcə də, dəvətçinin Allaha asilikdə cürətli olması başqalarının belə olması kimi deyildir; insanlar onu bu işdə örnək alır. Bu da, asiliklərin çoxalmasına, onların müsəlmanlar arasında yayılmasına və onlarda asiliklərə qarşı alışqanlığa səbəb olur. Bu dəvətçinin günaha qarşı cürətli olmasına görə günahı pis görmək adiləşir. Həmçinin məkruh (bəyənilməyən) bir əməl bəzən – əgər bu əməli etmək insanlarda bu əməlin mübah olması etiqadı yaradırsa – dəvətçi üçün haram hökmündə olur. Dəvətçi üzərində ağır əmanət yükü, böyük məsuliyyət var. Allahdan istəyirik ki, bizim hamımıza Onun razı qaldığı şəkildə dəvət etməyə yardım etsin! Həqiqətən, O, Kərimdir, Cavaddır (Səxavətlidir).

**8. Dəvətçi kobudluq etmədən görünüşündə, sözündə və əməlində vüqarlı olmalıdır.** Elə bir vüqar və ləyaqət sahibi olmalıdır ki, batil əhli ona cürət etməsin, müxlislər onu xəfifə almasın. Ciddilik tələb olunan yerdə ciddi olmalı, zarafat edilməli yerdə zarafat etməlidir. Danışmaq xeyirlidirsə, danışmalı, xeyir yoxdursa, susmalıdır... Dəvətçi vüqarlı olması ilə yanaşı genişkökslü, gülərüz, yumşaqxasiyyət olmalıdır; insanlarla ülfət bağlamalıdır ki, onun ətrafından dağılıb getməsinlər. Neçə-neçə genişköksələr, gülərüzlər, yumşaqxasiyyətlər toplum-toplum insanları Allahın dininə daxil etmişdir.

---

[1] ər-Rad surəsi, ayə 17.
[2] Əhməd əl-Həşimi. *əs-Səhr ul-Hələl fil-Hikəm val-Əmsəl*, səh. 64.

## Beşinci fəsil: dəvətin uğur qazanmasının səbəbləri

Dəvətin uğur qazanması bütün dəvətçilərin can atdığı səmərədir. Əgər dəvətçilər dəvətlərinin uğur qazanacağına ümid etməsəydilər, gücdən düşər, dəvətləri də getdikcə zəifləyərdi. Hər bir dəvətçi öz dəvətinin uğur qazanma səbəblərini bilməli və xoş nəticəyə çatmaq üçün bu səbəblərə riayət etməlidir. **Dəvətin uğur qazanma səbəblərindən bəziləri:**

**1. İkinci və dördüncü fəsildə keçən məsələləri tətbiq etmək.**

**2. Dəvətin dövlətdə nüfuz və səlahiyyət sahibi şəxslər tərəfindən dəstəklənməsi.** Həqiqətən, hakimiyyət və dəvət ümmətin islahı üçün iki əsas amildir. Əgər bu iki əsas birləşərsə[1], Allahın izni ilə, qarşıya qoyulan hədəf əldə olunar. Yox, əgər bu iki əsas bir-birindən ayrılarsa, cəhdlər ya tamamilə boşa çıxar, ya da əhəmiyyətli dərəcədə zəifləyər. Buna görə də sarsılmaz, həqiqi izzət və yer üzündə hakimiyyət verilməsini istəyən hər bir dövlətin öhdəsinə düşür ki, uca Allahın dininə, Onun Rəsulunun (ﷺ) yoluna müvafiq olmayan bütün təlimlərə və nizamlara ehtiyac duymadan izzət və calal sahibi Allahın dininə əməl etsin, Onun Rəsulunun (ﷺ) yolu ilə getsin. Çünki Allahın kəlməsi ən ucadır, Onun dini isə qalibdir. Beləcə, kim Allahın kəlməsinə və dininə sarılarsa, ona müxalif olan hər kəs üzərində onun üçün qələbə və üstünlük olacaqdır. Uca Allah buyurur: ***"Bu, Allahın vədidir. Allah Öz vədinə xilaf çıxmaz. Lakin insanların əksəriyyəti bunu bilmir. Onlar dünya həyatının zahirini bilirlər, axirətdən isə qafildirlər"***[2] .

Həmçinin sarsılmaz, həqiqi izzət və yer üzündə hakimiyyət verilməsini istəyən hər bir dövlətin öhdəsinə düşür ki, yardıma səbəb ola biləcək bacardığı bütün vasitələrdən – danışıq və əməl yönümlü, təşviq

---

[1] Qeyd: "Öncə bilmək lazımdır ki, həqiqi din xadiminin, bir islamşünasın ən mühüm hədəflərindən biri də öz ölkəsinin islahıdır. Bu islahın təməli düzgün etiqadın təbliğidir. Bu təbliğ isə yalnız sülh və əmin-amanlıq olan bir mühitdə mümkündür. İslam dini sülh və əmin-amanlıq dini olduğu üçün bir müsəlman öz ölkəsinin rəhbərliyi ilə pis münasibət qura bilməz, yaxud bir müsəlman yaşadığı ölkənin hakimini gözdən sala bilməz. Mömin Allaha asilikdə deyil, dinə zidd olmayan bütün əmr və qadağalarda itaət etməyin gərəkdiyini bilir.

Ümumiyyətlə, müsəlman alimlərin, din xadimlərinin dövlətlə münasibət qurması barədə dəyərli görüşləri var. Onlar müsəlman hakimə qarşı çıxmağın əleyhinə fətva vermiş, hakimə qarşı çıxmağın haram olmasında ittifaq etmişlər. Fayda üçün onu da qeyd edək ki, hakimiyyət mənsubları ilə din xadimlərinin münasibət qurması barədə sələf alimlərindən, əsasən, iki rəy var; 1 - Bir qism sələf alimləri müsəlman hakimiyyət rəhbərliyi ilə münasibətlər qurmağa çox müsbət yanaşmış, bunun ümmət üçün çox faydalı olduğunu bildirmişlər. 2 - Bir qism alimlər isə bu əlaqələrin yalnız zəruri hallarda qurulmasını caiz görmüş, əks halda isə bu əlaqələrin həmin din xadiminin dinində müəyyən bir fitnəyə səbəb olacağı qənaətinə gəlmişlər. Lakin bu rəyləri götürən sələf alimləri və imamlarının heç biri müsəlman hakimə qarşı çıxmağı icazəli hesab etməyiblər!" (Ə.Sahib, Mədinə İslam Universitetinin doktorantura tələbəsi)

[2] ər-Rum surəsi, ayə 6-7.

etmə və çəkindirmə metodundan istifadə edərək izzət və calal sahibi Allaha dəvət etməyə yardım etsin. Doğrudan da, bəzən uca Allah Quran vasitəsilə çəkindirmədiyini səlahiyyət sahibləri vasitəsilə çəkindirir. İnsanların qəlbində iman zəiflədikdə  günahlardan uzaq durmaq baxımından hakimiyyətin qoyduğu əngəl onlar üçün daha çox çəkindirici təsir bağışlayır, həmçinin bu, ibadətlər baxımından da müstəqim olub islah olunca daha münasibdir.

Həmçinin  bəsirət üzərində Allahın yoluna çağıran dəvətçilərin öhdəsinə düşür ki, dövlətdə nüfuz və səlahiyyət sahibləri ilə əlaqə saxlasınlar, onların etdikləri haqq işlərdə davamiyyətli olmaqlarına təşviq etsinlər, onlara bu yolda əldə edəcəkləri gözəl sonluq, dünya və axirət səadətini açıqlasınlar. Bununla yanaşı onları haqqa müxaliflikdən çəkindirsinlər, haqqa müxaliflikdə olan pis sonluq, dünya və axirət bədbəxtliyi barədə xəbərdarlıq etsinlər. Həmçinin onları yardım edə biləcəkləri bütün vasitələrlə Allahın yoluna dəvət etməyə təşviq etsinlər, dəvəti yardımsız qoymaqdan, ona qarşı gəlməkdən və müxalif olmaqdan çəkindirsinlər.

**3. Dəvətin qəbul edə bilən bir mühitə və “münbit bir zəminə” rast gəlməsi.** Belə ki, dəvət olunanlar onu qəbul etməyə hazır olurlar və onların dəvəti qəbul etmələrinə mane olacaq heç bir maneə və yayındırıcı amil olmur.  Belə hal çox vaxt o qövmdə olur ki, onlar etdikləri batil əməllərin nəticəsini bilirlər və onları bu haldan qurtaracaq birini axtarmağa başlayırlar. Peyğəmbərin (ﷺ) dəvətinin necə münasib bir mühitə və münasib bir vaxta rast gəldiyinə bax: elçilərin arası kəsilmiş, hidayət yolları itib-batmışdı. İnsanlar peyğəmbərlik nurunu səbrsizliklə gözləyir, peyğəmbərlik yağışının gəlib onların susuzluğunu aparmasına həsrət idilər. Həqiqətən, pak və nöqsansız Allah yer əhlinə nəzər saldı,  kitab əhlindən qalan bəzi kəslər istisna, onlara – ərəblərə və qeyri-ərəblərə  nifrət etdi. Beləcə, Peyğəmbərin (ﷺ) insanlara göndərilməsi quru, sərt bir yerə yağış yağması və yerin də bu yağışı qəbul edib canına çəkməsi kimi oldu. Buna ən aydın misallardan biri təqribi hicrətdən beş il əvvəl Övs və Xəzrəc qəbilələri arasında baş vermiş “Buas döyüşü”ndə baş verənlərdir; o döyüşdə hər iki qəbilədən – Övsdən və Xəzrəcdən  çoxlu insan, o cümlədən hörmətli insanlar da öldürülmüşdü. Bu səbəbdən də onların hamısını bir yerə toplayacaq və  birləşdirəcək bir şeyə çox  ehtiyacları vardır. Buxarinin “Səhih” əsərində rəvayət olunur ki, Aişə (Allah ondan razı olsun) demişdir:

*"Buas"günü Allah-taalanın Rəsuluna (ﷺ) bəxş etdiyi*[1] *bir gün idi. Allah Rəsulu (ﷺ) (Mədinəyə) gəldikdə artıq onların (Övs və Xəzrəcin) camaatı pərən düşmüş, qövmün başçıları öldürülmüş, özləri isə yaralanmışdı. Allah-taala bu günü onların islama daxil olması üçün Rəsuluna (ﷺ) zəmin etmişdir"*[2].

Həmçinin Məhəmməd ibn İshaq nəql edir ki, "Peyğəmbər (ﷺ) həcc mövsümündə Xəzrəc qəbiləsindən olan bəzi insanlarla danışıb islamı ərz etdikdə onlar onu qəbul etdilər və dedilər: "Biz öz qövmümüzü tərk etdik. Aralarında bizim qövmümüzdəki qədər düşmənçilik və şər olan başqa heç bir qövm yoxdur. Ola bilsin, Allah sənin vasitənlə onları birləşdirşin"[3]. Amma dəvət, gələcək batilə qarşı meyilli olan, onun "şərabından" bihuş olan, bər-bəzəyinə və ilğımına aldanan bir qövmdədirsə, belə insanların içərisində dəvətin uğur qazanması çətin olur. Çünki onlarda batilə təhrik edilmə meyli güclüdür. Bu, sanki qarşısı tutulmuş suyun maneəsi götürüldükdə şiddətlə axmasına bənzəyir. Beləcə, dəvətçilər bu yeni axının qarşısını almaq və onu üstələmək üçün dəvətdə böyük bir gücə ehtiyac duyurlar. Həmçinin bu dəvət müxtəlif vasitələrdən istifadə etməklə və bütün sahələrdə hayata keçirilməlidir.

**4. Dəvətçi dəvətinin uğur qazanmasına böyük ümid etməli və ümidsizlikdən uzaq durmalıdır.** Çünki ümid dəvətdə irəli getmək və onun müvəffəqiyyəti üçün səy göstərməkdə güclü bir qüvvədir. Necə ki ümidsizliyə qapılmaq da dəvətdə geriləməyə və zəifləməyə səbəbdir. Məhz buna görə görürsən ki, Allah-taala Peyğəmbərinə(ﷺ) çoxlu ümid qapıları açıb; necə ki buyurur: ***"Sən xatırlat, həqiqətən, xatırlatmaq möminlərə fayda verir"***[4]. Həmçinin demişdir: ***"(İslamı) bütün dinlərdən üstün etmək üçün Öz Rəsulunu hidayət və haqq din ilə göndərən Odur. Şahid olaraq Allah yetər"***[5] . Həmçinin buyurur: ***"Bunlar, sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir. Bundan əvvəl onları nə sən, nə də sənin qövmün bilirdi. Səbir et! Şübhəsiz ki, (gözəl) aqibət müttəqilərindir"***[6] . Və s. Buna bənzər ayələrlə...

---

[1] Hədisdə bu döyüş gününün Peyğəmbərə (ﷺ) verilmiş bir nemət kimi vurğulanması ona görədir ki, bu döyüşdən sonra islama dəvət üçün zəmin yaranmışdır. Belə ki, insanların döyüşlərdə itirdikləri yaxınlarının qanının yerdə qalması onları ədalət axtarışına qaldırmışdır. Eyni zamanda bu döyüşlərdə onlar öz başçılarını, hörmətli şəxslərini itirmişdilər. Ümumilikdə bu hal Allaha dəvət üçün fürsət idi.

[2] Buxari. *Səhih*, hədis 3777.

[3] İbn Hişam. *əs-Sira ən-Nəbəviyyə*, 2-ci cild, səh. 42.

[4] əz-Zəriət surəsi, ayə 55.

[5] əl-Fəth surəsi, ayə 27.

[6] Hud surəsi, ayə 49.

Peyğəmbərin (ﷺ) qövmü tərəfindən başına gətirilmiş ən şiddətli gündəki böyük ümidinə, uzaqgörənliyinə bax: bu, Taif camaatını Allaha dəvət edib qayıtdığı gündür. Onlar Peyğəmbərin (ﷺ) dəvətini qəbul etməmiş, bununla belə özlərindən olan səfehləri onun üstünə salmışdılar. Peyğəmbər (ﷺ) Tülkülər təpəsinə (Məkkə və Taif arasında yerləşən təpə adıdır. "Tülkülər" adlanmasına səbəb tülkülər tərəfindən sığınacaq edilməsidir. – tərc.) çatdıqda Cəbrayıl (Ona Allahın salamı olsun) onu səsləyib dedi: *"Artıq Allah-taala sənin qövmünün dediklərini və sənə nə cavab verdiklərini eşitdi, dağlar mələyini sənə göndərdi ki, onlar barəsində ona istədiyin əmri verəsən". – Peyğəmbər dedi: "Dağlar mələyi məni səslədi, mənə salam verdi, sonra isə dedi: "Ey Məhəmməd, bu sənin istəyinə bağlıdır, istəyirsən onları (Taif əhlini) iki dağın (Məkkəni əhatə edən iki dağ : Əbu Qubeys və əl-Əhmar – tərc.) arasında sıxıb məhv edim". – Peyğəmbər(ﷺ) dedi: "Xeyr. Əksinə, ümid edirəm ki, uca Allah onların sülbündən tək olan Allaha ibadət edən, Ona heç bir şeyi şərik qoşmayan insanlar çıxaracaq"[1].*

Beləcə, aydın olur ki, ümid dəvətdə irəli getməkdə, onun müvəffəqiyyəti üçün səy göstərməkdə və dəvət üzərində davamiyyətli olmaqda güclü bir qüvvədir.

Uca Allahdan istəyirik ki, bizi xeyirə dəvət edən, şərdən çəkindirənlərdən etsin! İslam ümməti üçün işlərini doğru istiqamətə yönəldəcək, xeyir və doğru yol sahibi başçılar, haqq ilə hökm verən, onunla ədalətli davranan, saleh, islahatçı rəhbərlər nəsib etsin! Həqiqətən, O, Kərimdir, Cavaddır (Səxavətlidir). Aləmlərin Rəbbi Allaha həmd olsun, Peyğəmbərimiz Məhəmmədə, onun ailəsinə və bütün səhabələrinə salavat və salam olsun!

---

[1] Buxari. *Səhih*, hədis 3231; Müslim. *Səhih*, hədis 1795.

## Mündəricat


Ön söz........................................................................................................ 3

Müqəddimə......................................................................................................4

**Birinci fəsil:** Allaha dəvət etməyin vacibliyi və fəzilətinin bəyanı............... 4

**İkinci fəsil:** Allaha dəvət etməyə vasitələr və onların tətbiqi üsulları........ 10

**Üçüncü fəsil:** Allaha dəvət fəaliyyəti sahəsi................................................. 14

**Dördüncü fəsil:** dəvətçinin yiyələnməli olduğu sifətlər və əməllər........... 15

**Beşinci fəsil:** dəvətin uğur qazanmasının səbəbləri.................................... 22